# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı”nın və “Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları”nın təsdiq edilməsi haqqında**

“Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 mart tarixli 2067 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı” təsdiq edilsin (1 nömrəli əlavə).

2. “Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları” təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bu Qərar 2023-cü il aprelin 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 iyun 2023-cü il

№ 192

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 14 iyun
tarixli 192 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

## Ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrində dövlət sifarişi ilə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı

| Sıra №-si | İxtisaslar | Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Kargüzar | 1 340 |
| 2. | Reklam dizayneri | 1 360 |
| 3. | Reklam işçisi | 1 950 |
| 4. | Xalça və xalça məmulatının bərpaçısı | 1 920 |
| 5. | İnteryer və eksteryerin bədii tərtibatçısı | 1 880 |
| 6. | Florist | 1 780 |
| 7. | Zərgər | 2 160 |
| 8. | Ağac nəqqaşı | 2 470 |
| 9. | Ağacdan bədii məmulatlar hazırlayan usta | 2 336 |
| 10. | Xalçaçı | 2 580 |
| 11. | Misgər | 2 160 |
| 12. | Əməliyyatçı-mühasib | 1 420 |
| 13. | Mühasibat uçotu | 1 340 |
| 14. | Sığorta işçisi | 1 570 |
| 15. | Dayə | 1 090 |
| 16. | Ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi-xəzinədar | 1 250 |
| 17. | Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi | 2 330 |
| 18. | Logistika operatoru | 1 280 |
| 19. | Tədbirlərin təşkilatçısı | 1 590 |
| 20. | İşıq operatoru | 2 160 |
| 21. | Kinomontajçı | 2 160 |
| 22. | Səs operatoru | 2 160 |
| 23. | Video çəkilişi üzrə operator | 2 240 |
| 24. | Media və audiovizual texnologiyaların istismarı | 2 160 |
| 25. | Aşpaz | 2 210 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 26. | Qənnadçı, şirniyyatçı | 2 210 |
| 27. | Turizm sahəsində iaşə üzrə mütəxəssis | 2 210 |
| 28. | Bərbər | 1 690 |
| 29. | Bərbər-vizajist-manikürçü | 1 740 |
| 30. | Qrimçi-pastijor | 1 400 |
| 31. | Saç kəsimi və gözəllik xidmətlərinin təşkili | 1 690 |
| 32. | Turizm təşkilatçısı | 1 460 |
| 33. | Avtomatika üzrə usta | 2 180 |
| 34. | Avtomatika sistemlərinin istismarı | 1 470 |
| 35. | Avtomatlaşdırılmış texnologiyalar və istehsal üzrə operator | 1 470 |
| 36. | Mühafizə-yanğın siqnalizasiyasının elektro-montyoru | 1 450 |
| 37. | Nəzarət-ölçü və avtomatika cihazlarının çilingəri | 1 298 |
| 38. | Yük və baqaj üzrə xəzinədar | 1 298 |
| 39. | Kompüter operatoru | 1 440 |
| 40. | İnformasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi | 1 160 |
| 41. | Kompüterlərin təmiri və xidməti üzrə texnik | 1 910 |
| 42. | Qrafik dizayner | 1 860 |
| 43. | Sistem və şəbəkə xidməti üzrə texnik | 1 800 |
| 44. | Telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator | 1 510 |
| 45. | İnformasiya-kommunikasiya texnologiyaları üzrə texnik | 2 180 |
| 46. | Veb-dizayner və proqram təminatçısı | 1 870 |
| 47. | Veb-dizayn və proqram təminatı | 1 670 |
| 48. | Veb-dizayner | 1 880 |
| 49. | Kibertəhlükəsizlik | 1 880 |
| 50. | Kompüter sistemlərində proqramlaşdırma | 1 410 |
| 51. | Lokal şəbəkələrə xidmət üzrə texnik | 1 550 |
| 52. | Kompüter sistemlərində proqram təminatı | 1 880 |
| 53. | Kompüter ustası | 1 970 |
| 54. | Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı | 1 880 |
| 55. | Mühafizəçi | 1 090 |
| 56. | Mehmanxana inzibatçısı | 1 340 |
| 57. | Mehmanxana və restoran işinin təşkili və idarə edilməsi | 1 280 |
| 58. | Mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi | 1 340 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 59. | Oteldə konsiyerj | 1 340 |
| 60. | Bitkiçilik mütəxəssisi | 2 200 |
| 61. | Baramaçı | 2 210 |
| 62. | Meyvə ustası | 2 300 |
| 63. | Tərəvəz ustası | 2 050 |
| 64. | Genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər | 2 830 |
| 65. | Genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası) | 2 440 |
| 66. | Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer | 1 990 |
| 67. | Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, avtomobil sürücüsü (BC) | 2 030 |
| 68. | Kənd təsərrüfatı və inşaat texnikasının (maşınlarının) istismarı | 2 710 |
| 69. | Kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, avtomobil sürücüsü | 2 388 |
| 70. | Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik, avtomobil sürücüsü | 2 900 |
| 71. | Avtomobil və traktorların elektrik avadanlıqlarının təmiri üzrə çilingər-elektrik | 2 388 |
| 72. | Aqroservis mütəxəssisi | 2 120 |
| 73. | Heyvandarlıq mütəxəssisi | 2 150 |
| 74. | Baytar texniki | 1 700 |
| 75. | Baytarlıq və heyvandarlıq işi | 1 820 |
| 76. | Mexanikləşdirilmiş heyvandarlıq fermalarının və komplekslərinin mexanizatoru və elektrik montyoru | 2 388 |
| 77. | Arıçı | 1 410 |
| 78. | Meliorasiya işlərinin traktorçusu, təmirçi-çilingər, avtomobil sürücüsü | 2 388 |
| 79. | Dağ-mədən işləri üzrə mütəxəssis | 2 720 |
| 80. | Neft və qazçıxarma operatoru | 2 570 |
| 81. | Bağban-dekorator | 1 380 |
| 82. | Mebel ustası | 1 690 |
| 83. | Üzlükçü dizayner | 1 430 |
| 84. | Balıq yetişdirilməsi üzrə mütəxəssis | 1 440 |
| 85. | Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis | 2 600 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 86. | Elektrik maşınlarının təmiri üzrə elektrik çilingəri | 2 336 |
| 87. | Yüksəkgərginlikli hava xətlərinin və kontakt şəbəkələrinin quraşdırıcısı üzrə elektrik montyoru-xətçi | 3 130 |
| 88. | Lift üzrə elektromexanik | 2 610 |
| 89. | Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru | 2 580 |
| 90. | Sənaye və mülki binalarda elektrik avadanlıqlarının quraşdırılması və istismarı | 2 470 |
| 91. | Tibbi avadanlıqların təmiri və xidməti elektromexaniki | 2 336 |
| 92. | Elektronika ustası | 2 650 |
| 93. | Elektronika və kommunikasiya sistemlərinin istismarı | 2 350 |
| 94. | Radio-televiziya aparatlarının təmiri və xidməti radiomexaniki | 2 250 |
| 95. | Rabitə avadanlıqlarının quraşdırıcısı | 1 760 |
| 96. | Mobil telefonların təmiri ustası | 2 610 |
| 97. | Rabitə quraşdırıcısı-antenaçı | 2 232 |
| 98. | Rabitə quraşdırıcısı-kabelçi | 2 232 |
| 99. | Əl elektrik qaynaqçısı | 2 610 |
| 100. | Elektrik qaz qaynaqçısı | 2 440 |
| 101. | Sənayedə quraşdırma işləri üzrə usta | 2 710 |
| 102. | Sənayedə avadanlıqların quraşdırılması və texniki istismarı | 2 390 |
| 103. | Proqramla idarə olunan dəzgahların operatoru | 1 970 |
| 104. | Proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı | 1 410 |
| 105. | Torna və frezer dəzgahlarının operatoru | 1 410 |
| 106. | Tornaçı | 1 630 |
| 107. | Rəqəmli idarə olunan dəzgahların kompüter operatoru (CAD/CAM/ CAE) | 1 298 |
| 108. | Mexaniki yığma işləri üzrə çilingər | 1 460 |
| 109. | Təmirçi-çilingər | 1 600 |
| 110. | Alətçi çilingər | 1 600 |
| 111. | Planer və mühərrik üzrə mexanik | 2 388 |
| 112. | Uçan aparatların cihaz avadanlıqları üzrə elektromexanik | 2 390 |
| 113. | Gəmi maşın və mexanizmlərinin təmiri üzrə çilingər | 1 920 |
| 114. | Gəmi elektrik-qaz qaynaqçısı | 2 388 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 115. | Tankerlərdə yükləmə-boşaltma əməliyyatçısı | 1 920 |
| 116. | Elektrovoz maşinisti | 2 336 |
| 117. | Elektrovoz maşinisti köməkçisi | 1 480 |
| 118. | Teplovoz maşinisti | 2 336 |
| 119. | Teplovoz maşinisti köməkçisi | 1 740 |
| 120. | Dəmiryolu stansiyası və keçidinin növbətçisi | 1 500 |
| 121. | Dəmiryolu stansiyasının növbətçisi | 1 740 |
| 122. | Vaqon baxıcısı-təmirçisi | 2 600 |
| 123. | Texniki xidmət məntəqələrində lokomotivlərin baxıcısı və təmiri çilingəri | 3 130 |
| 124. | Kontakt şəbəkəsinin elektrik montyoru | 2 710 |
| 125. | İşarəvermə, mərkəzləşdirmə, bloklama qurğularının təmiri və xidməti elektrik montyoru | 3 130 |
| 126. | Elektrik qatarının maşinisti | 1 505 |
| 127. | Elektrik qatarının maşinisti köməkçisi | 2 020 |
| 128. | Kran maşinisti (krançı) | 2 388 |
| 129. | Avtomobil (dəniz, çay) nəqliyyatında hərəkət və yükləmə-boşaltma işləri dispetçer məntəqəsinin operatoru | 2 388 |
| 130. | Avtomobil rəngsazı | 2 390 |
| 131. | Avtomobil üzrə dəmirçi | 2 390 |
| 132. | Avtomobil üzrə elektrik | 2 460 |
| 133. | Avtomobillərin təmiri çilingəri | 2 710 |
| 134. | Avtomobillərin təmiri çilingəri-avtomobil sürücüsü | 2 370 |
| 135. | Avtomobil mexatronikası üzrə texnik | 2 710 |
| 136. | Avtomobil diaqnostikası və təmiri ustası | 2 310 |
| 137. | Avtomobil mühərriklərinin yığıcısı | 2 390 |
| 138. | Nəqliyyat vasitələrinin texniki istismarı (avtomobil üzrə) | 2 340 |
| 139. | Metropolitenin stansiya növbətçisi | 1 740 |
| 140. | Kimyəvi analiz laborantı | 1 760 |
| 141. | Laborant-mikrobioloq | 1 600 |
| 142. | Kimyəvi-bakterioloji analiz laborantı | 1 505 |
| 143. | Neft-kimya sənayesinin aparatçısı-operatoru | 1 710 |
| 144. | Texnoloji qurğuların operatoru | 1 710 |
| 145. | Çörək ustası | 1 710 |
| 146. | Üzümçülük və şərab ustası | 1 800 |
| 147. | Dərzi | 1 930 |
| 148. | Tikiş avadanlıqlarının operatoru, tikişçi | 1 490 |

| 1 | 2 | 3 |
|---|---|---|
| 149. | Geyim üzrə dizayner | 2 060 |
| 150. | Moda dizaynı | 2 160 |
| 151. | Kostyum ustası və dərzi | 1 960 |
| 152. | Poliqrafiya üzrə dizayner | 2 300 |
| 153. | Kompüter üzrə operator, dizayner | 2 100 |
| 154. | Çilingər-santexnik | 2 070 |
| 155. | Mənzil təsərrüfatı xidməti üzrə mütəxəssis | 2 010 |
| 156. | Dülgər | 1 880 |
| 157. | İnşaat xarratı | 1 800 |
| 158. | Rəngsaz və suvaq ustası | 1 860 |
| 159. | İnşaat ustası | 1 810 |
| 160. | Quru inşaat işləri ustası | 1 830 |
| 161. | Binaların tikintisi və istismarı | 1 650 |
| 162. | İnteryer dizayn | 1 880 |
| 163. | Plastik qapı və pəncərə ustası | 1 470 |
| 164. | İsitmə və soyutma sistemlərinə xidmət üzrə mütəxəssis | 2 710 |
| 165. | İsitmə-soyutma, havalandırma sistemləri və avadanlıqları üzrə montajçı | 2 810 |
| 166. | Kombi və kondisioner ustası | 2 710 |
| 167. | Plastik boru qaynaqçısı | 1 780 |
| 168. | Yolun və süni qurğuların cari təmiri və saxlanması üzrə briqadir | 2 336 |

**Qeyd.** Peşə təhsili müəssisəsi tərəfindən dövlət sifarişi ilə hər bir təhsilalana çəkilən faktiki illik xərc təsdiq edilmiş illik təhsil xərcinin miqdarından artıq olduğu halda, çatışmayan vəsait həmin təhsil müəssisəsi və ya onun tabe olduğu qurum tərəfindən digər mənbələr hesabına ödənilir.

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 14 iyun
tarixli 192 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

# Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

1.1. "Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları" (bundan sonra – Qaydalar) "Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 mart tarixli 2067 nömrəli Fərmanının (bundan sonra – Fərman) 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi məsələlərini tənzimləyir.

1.2. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi dövlət sifarişi əsasında həyata keçirilir.

1.3. Peşə təhsili müəssisələrinin maliyyələşdirilməsinin dövlət sifarişi əsasında həyata keçirilməsi ilk peşə təhsili, texniki peşə təhsili və yüksək texniki peşə təhsili səviyyələrini əhatə edir.

1.4. Tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün peşə təhsili müəssisələri dövlət sifarişinin yerinə yetirilməsində iştirak edə bilərlər.

1.5. Dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığı adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilir.

1.6. Fərmana əsasən peşə təhsili müəssisələrində 2023-2026-cı illərdə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına bu Qaydaların 6-cı hissəsinə uyğun olaraq artım əmsalı tətbiq edilir.

1.7. Hər növbəti təqvim ili üçün dövlət büdcəsinin vəsaiti hesabına adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət sifarişi ilə kadr hazırlığını həyata keçirəcək peşə təhsili müəssisələrinin siyahısı və təhsilalanların sayı, eləcə də hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalı tətbiq ediləcək təhsilalanların sayı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **dövlət sifarişi** - ölkənin əmək bazarının tələbləri və iqtisadiyyatının prioritet inkişaf istiqamətləri nəzərə alınmaqla, müəyyən edilmiş ixtisaslar üzrə təhsil xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan təhsilalanların sayı;

2.1.2. **dövlət sifarişi əsasında maliyyələşdirmə** - dövlət sifarişi çərçivəsində peşə təhsili almaq hüququnu əldə edən şəxslərin təhsil xərclərinin adambaşına maliyyələşdirmə prinsipi əsasında dövlət büdcəsi hesabına maliyyələşdirilməsi;

2.1.3. **adambaşına maliyyələşdirmə prinsipi** - peşə təhsili müəssisələrində təhsillə bağlı xərclərin hər bir təhsilalana düşən illik təhsil xərcləri əsasında müəyyənləşdirilməsi.

## 3. Adambaşına maliyyələşdirilmənin həcminin müəyyənləşdirilməsi

3.1. Adambaşına maliyyələşdirilmənin həcminin müəyyənləşdirilməsi hər bir təhsilalana düşən illik təhsil xərclərinin müvafiq ixtisasların xüsusiyyətləri nəzərə alınmaqla hesablanması üçün istifadə edilən formul və prosedurları məcmu şəkildə özündə əks etdirən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin metodikasına əsaslanır.

3.2. Beynəlxalq müqavilələrə əsasən Azərbaycan dövlətinin hesabına peşə təhsili alan əcnəbilər üçün adambaşına illik təhsil xərclərinin hesablanması zamanı beynəlxalq müqavilələrin şərtlərindən asılı olaraq, digər xərclər də nəzərə alınır.

## 4. Dövlət sifarişi çərçivəsində təhsilalanların müəyyənləşdirilməsi

4.1. Hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə peşə təhsili müəssisələrinin ilk peşə təhsili, texniki peşə təhsili və yüksək texniki peşə təhsili səviyyələrində dövlət sifarişi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmış təklifləri əsasında müəyyənləşdirilir. Hər il aprelin 1-dək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və aidiyyəti dövlət orqanları (qurumları) ilə növbəti tədris ili üçün razılaşdırılmış təklifləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət sifarişinə uyğun olaraq, aidiyyəti dövlət orqanlarının (qurumlarının) təqdim etdikləri təkliflər əsasında hər il mayın 1-dək növbəti tədris ili üçün müvafiq ixtisaslar üzrə peşə təhsili müəssisələrinin ilk peşə təhsili, texniki peşə təhsili və yüksək texniki peşə təhsili səviyyələrinə tələbə qəbulunu müəyyən edir.

4.3. Dövlət sifarişində iştirak etmək istəyən bələdiyyə və özəl peşə təhsili müəssisələri hər il martın 1-dək növbəti tədris ili üzrə tələbə qəbulu ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etməlidirlər. Təkliflərdə bələdiyyə və özəl peşə təhsili müəssisəsinin dövlət sifarişində hansı ixtisaslar üzrə iştirak edə biləcəyi qeyd olunmalıdır.

4.4. Peşə təhsili müəssisələrində müxtəlif ixtisaslar üzrə dövlət sifarişi ilə təhsil almaq hüququnu qazanan şəxslər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrinə qəbul Qaydası”na uyğun olaraq müsabiqə nəticəsində müəyyən edilirlər.

4.5. Dövlət sifarişi ilə təhsil almaq hüququnu qazanan şəxslərə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq identifikasiya kodu verilir.

4.6. Peşə təhsili müəssisələrinə müsabiqə əsasında müxtəlif ixtisaslar üzrə dövlət sifarişi ilə təhsil almaq istəyən şəxslər

tabeliyindən, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq peşə təhsili müəssisəsinin seçimində sərbəstdirlər.

4.7. Dövlət sifarişi yerləri tələbə qəbulu üzrə müsabiqənin nəticələrinə əsasən boş qaldığı halda, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həmin yerlərə eyni ixtisas (ixtisaslaşma) üzrə ödənişli əsaslarla qəbul olmuş və attestat qiymətlərinin orta balı ən yüksək olan (yüksək texniki peşə təhsili səviyyəsində ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında və ya Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanında ən yüksək bal toplamış) şəxs, eyni ixtisas (ixtisaslaşma) üzrə təhsilalan olmadıqda isə eyni ixtisas qrupu üzrə ödənişli əsaslarla qəbul olmuş attestat qiymətlərinin orta balı ən yüksək olan (yüksək texniki peşə təhsili səviyyəsi üzrə ümumi orta və tam orta təhsil səviyyələri üzrə məzunların buraxılış imtahanında və ya Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən orta ixtisas təhsili müəssisələrinə ümumi orta və tam orta təhsil bazasında qəbul imtahanında ən yüksək bal toplamış) şəxs yerləşdirilir.

## 5. Dövlət sifarişi əsasında maliyyələşdirilmənin şərtləri

5.1. Dövlət sifarişi əsasında maliyyələşdirilmənin şərtləri bu Qaydaların 1 və 2 nömrəli əlavələrində göstərilən nümunəvi müqavilələr əsasında müəyyənləşdirilir.

5.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə peşə təhsili müəssisələri arasında hər il sentyabrın 15-dək bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun olaraq müqavilə imzalanır.

5.3. Peşə təhsili müəssisələri ilə dövlət sifarişi əsasında təhsil alacaq təhsilalan arasında hər il sentyabrın 15-dək bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun olaraq müqavilə imzalanır.

5.4. Dövlət sifarişi əsasında maliyyələşdirilmə ayrı-ayrı ixtisaslar üzrə normativ təhsil müddətini əhatə edir.

5.5. Dövlət sifarişi əsasında maliyyələşdirilmə bu Qaydaların 5.4-cü bəndində qeyd olunmuş müddətdən çox ola bilməz.

5.6. Dövlət sifarişi əsasında maliyyələşdirilmə aşağıdakı hallarda müvəqqəti olaraq dayandırılır:

5.6.1. müddətli həqiqi hərbi xidmətə çağırıldıqda (2 ildən çox olmayaraq);

5.6.2. ailə vəziyyəti və səhhəti imkan vermədikdə (2 ildən çox olmayaraq);
5.6.3. sosial məzuniyyətdə olduqda (qanunvericiliklə müəyyən olunmuş müddətə);
5.6.4. xaricdə təhsil aldıqda (1 ildən çox olmayaraq);
5.6.5. peşə təhsili müəssisələri arasında bağlanılan müqavilələr çərçivəsində tələbə təhsilini xaricdə davam etdirdikdə (müqavilədə göstərilən təhsil müddətinə).
5.7. Dövlət sifarişi əsasında maliyyələşdirilmədən məhrum edilmə aşağıdakı hallarda baş verə bilər:
5.7.1. təhsilalan təhsilini davam etdirmədikdə (bu Qaydaların 5.6-cı bəndi istisna olmaqla);
5.7.2. təhsilalan peşə təhsili müəssisələrindən xaric edildikdə (digər peşə təhsili müəssisəsinə köçürülmə ilə bağlı xaric edilmə istisna olmaqla);
5.7.3. təhsilalan bu Qaydaların 5.6-cı bəndində qeyd olunan hallarda göstərilən müddətlərdən çox təhsilinə fasilə verdikdə;
5.7.4. təhsilalan ixtisasını dəyişdirdikdə (bu Qaydaların 5.6-cı bəndində göstərilən səbəblərə görə müvəqqəti təhsilini dayandırmış şəxslər təhsilini davam etdirmək istədikdə, həmin peşə təhsili müəssisəsində eyni ixtisas üzrə mütəxəssis hazırlığı aparılmadığı hallar istisna olmaqla);
5.7.5. dövlət sifarişi əsasında maliyyələşdirilmə müddəti bitdikdə.
5.8. Dövlət sifarişi əsasında maliyyələşdirilməsi müvəqqəti olaraq dayandırılan təhsilalanın təhsilinin yenidən dövlət sifarişi əsasında maliyyələşdirilməsi yalnız həmin təhsilalanın bu Qaydaların 5.6-cı bəndində nəzərdə tutulmuş hallara görə təhsilə fasilə verməsi müəyyən edildiyi təqdirdə mümkündür.
5.9. Dövlət sifarişi çərçivəsində peşə təhsili almaq hüququ qazanmış təhsilalan bu hüquqdan imtina edərsə və ya bu hüquqdan məhrum edilərsə, onda həmin təhsilalan üçün nəzərdə tutulmuş istifadə olunmamış vəsait tədris ilinin yekununa görə ən yüksək nəticələr göstərmiş eyni ixtisas üzrə ödənişli əsaslarla təhsilalana təklif olunur. Həmin təhsilalan dövlət sifarişi çərçivəsində təhsil alması ilə bağlı şərtləri qəbul etdiyi təqdirdə, bu proses bu Qaydalarla müəyyən edilmiş formada rəsmiləşdirilir. Təhsilalan bu Qaydaların 5.7-ci bəndində nəzərdə tutulmuş hallara görə dövlət sifarişi əsasında maliyyələşdirmədən məhrum edilərsə, bu barədə 7 (yeddi) iş günü

müddətində peşə təhsili müəssisəsi tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə bildiriş təqdim olunur.

5.10. Dövlət sifarişi əsasında maliyyələşdirilmə hüququnu əldə etmiş təhsilalan mülkiyyət formasından asılı olmayaraq, dövlət sifarişində iştirak edən hər hansı digər peşə təhsili müəssisəsində eyni ixtisas üzrə təhsilini davam etdirdiyi təqdirdə, dövlət sifarişi əsasında maliyyələşdirilmə dayandırılmır.

## 6. Dövlət sifarişi əsasında hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi

6.1. Müasir infrastruktur, maddi-texniki və tədris bazasına malik olan peşə təhsili müəssisələrində dövlət sifarişi əsasında hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına 1,75 artım əmsalı tətbiq edilir.

## 7. Dövlət sifarişi əsasında maliyyələşdirilmənin səmərəliliyinə nəzarət

7.1. Dövlət sifarişində iştirak edən peşə təhsili müəssisələrində maliyyələşmənin səmərəliliyinə nəzarəti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və aidiyyəti dövlət orqanları həyata keçirirlər.

“Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları”na

**1 nömrəli əlavə**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə peşə təhsili müəssisəsi arasında**

## NÜMUNƏVİ ÇƏRÇİVƏ MÜQAVİLƏSİ

Bakı şəhəri “_____” _______________ 20____ il

Bir tərəfdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və digər tərəfdən peşə təhsili müəssisəsi ______________________
_________________________________________________________
(adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı)

birgə “tərəflər”, ayrı-ayrılıqda isə “tərəf” adlanmaqla, bu Müqaviləni aşağıdakı şərtlərlə imzaladılar:

### 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilənin predmeti “Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 mart tarixli 2067 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən peşə təhsili müəssisələrində kadr hazırlığının adambaşına maliyyələşdirilmə prinsipi əsasında dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi ilə həyata keçirilməsi zamanı tərəflər arasında yaranan münasibətlərdir.

1.2. 2023-cü il aprelin 1-dən peşə təhsili pilləsinin bütün səviyyələrində dövlət sifarişi ilə təhsil alanlara münasibətdə hər il dövlət sifarişinin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı əsasında müəyyən olunur.

## 2. Tərəflərin hüquq və öhdəlikləri

2.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi illik təhsil xərclərini Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına uyğun olaraq, bu Müqavilənin 3-cü hissəsində nəzərdə tutulmuş qaydada dövlət sifarişi ilə təhsil almaq hüququnu qazanan şəxsin seçdiyi peşə təhsili müəssisəsinə ödəməyi öhdəsinə götürür.

2.2. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin aşağıdakı hüquqları vardır:

2.2.1. peşə təhsili müəssisəsindən bu Müqavilənin tələblərinə riayət edilməsini tələb etmək;

2.2.2. peşə təhsili müəssisəsi üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə, Müqaviləyə mülki qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtından əvvəl xitam verildikdə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq çəkilmiş xərclərin məbləğinin geri qaytarılmasını tələb etmək.

2.3. Peşə təhsili müəssisəsi aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

2.3.1. təhsilalanların təhsilini peşə təhsilinin dövlət standartlarına uyğun təşkil etmək;

2.3.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən bu Müqavilənin tələblərinə riayət edilməsini tələb etmək;

2.3.3. peşə təhsili müəssisəsi üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə, Müqaviləyə mülki qanunvericiliklə müəyyən edilmiş qaydada vaxtından əvvəl xitam verildikdə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq çəkilmiş xərclərin məbləğinin geri qaytarılmasını tələb etmək;

2.3.4. hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarının ödənilməsi üçün zəruri olan sənədləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tələbi ilə təqdim etmək;

2.3.5. təhsilalanlara təqaüdlərin və qanunvericiliklə müəyyən olunmuş digər xərclərin ödənilməsini təmin etmək;

2.3.6. tədris ili bitdikdən sonra 20 (iyirmi) iş günü müddətində təhsilalanın illik təhsilinin nəticələrinə dair hesabatı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim etmək;

2.3.7. bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini çətinləşdirən və ya mümkünsüz edən hallar haqqında Azərbaycan

Respublikasının Elm və Təhsil Nazirliyinə 5 (beş) iş günü müddətində məlumat vermək.

2.4. Peşə təhsili müəssisəsinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyindən bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini tələb etmək hüququ vardır.

## 3. Xərclərin məbləği və ödəniş qaydası

3.1. Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.2. Nəzərdə tutulmuş xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə peşə təhsili müəssisəsi arasında bağlanılmış müqavilələr əsasında həyata keçirilir.

3.3. Bir təhsilalan üçün müəyyən edilmiş xərclər təhsil müəssisəsinin təqdim etdiyi müvafiq təsdiqedici sənədlər əsasında tərəflər arasında bağlanılmış müqaviləyə uyğun olaraq, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən vəsaitin birbaşa peşə təhsili müəssisəsinin müvafiq bank hesabına köçürülməsi yolu ilə rüblər üzrə ödənilir.

## 4. Qarşısıalınmaz qüvvə

4.1. Qarşısıalınmaz qüvvənin təsirinə tərəflərin nəzarət edə bilmədikləri, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, müvafiq qanunvericilik qərarları və digər hallar aiddir.

4.2. Qarşısıalınmaz hallara istinad edən tərəf:

4.2.1. qeyd olunan halların yarandığı vaxtdan 10 (on) gün müddətində digər tərəfi məsələ ilə yazılı şəkildə xəbərdar edir və onun tələbinə əsasən səlahiyyətli dövlət orqanı tərəfindən məlumatı təsdiq edən rəsmi sənədi ona təqdim edir. Məlumatda baş vermiş hadisənin xarakteri təsvir edilməli və mümkün olduqda, hadisənin tərəflərin bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsirinin qiymətləndirilməsi əks etdirilməlidir;

4.2.2. həmin hallar aradan qaldırıldıqda, dərhal bu barədə digər tərəfi yazılı surətdə məlumatlandırmalıdır. Bu zaman Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qeyd olunmalıdır. Məlumatın

göndərilmədiyi və ya vaxtında göndərilmədiyi təqdirdə, məlumatı təqdim etməyən və ya vaxtında təqdim etməyən tərəf müvafiq xərcləri ödəməlidir.

4.3. Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qarşısıalınmaz qüvvənin mövcud olduğu müddət ərzində uzadılır. Qarşısıalınmaz qüvvənin təsiri 2 (iki) aydan çox davam edərsə, istənilən tərəf bu Müqaviləni məhkəməyə müraciət etmədən, digər tərəfi bu Müqavilənin şərtlərinə müvafiq olaraq məlumatlandıraraq poza bilər.

## 5. Müqavilənin ləğv edilməsi qaydası

5.1. Tərəflərdən biri üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə, digər tərəf Müqaviləni mülki qanunvericiliklə müəyyən edilmiş qaydada ləğv edə bilər.

5.2. Tərəflərdən biri bu Müqaviləni davam etdirməkdən könüllü olaraq imtina etdiyi halda, Müqavilə hər iki tərəfin razılığı ilə ləğv edilir.

5.3. Müqavilənin ləğv edilməsi tələbi ilə çıxış edən tərəf digər tərəfə ləğvetməyə səbəb olmuş halları əsaslandırmaqla, yazılı bildiriş göndərir. Tərəflərdən biri Müqavilənin ləğv edilməsi tələbinə digər tərəfin imtina etməsi barədə məlumat aldıqda və ya həmin məlumatda vaxt göstərilmədikdə və 30 (otuz) iş günü müddətində ondan cavab almadıqda, Müqavilənin ləğv edilməsi barədə məhkəməyə müraciət edə bilər.

5.4. Müqaviləyə vaxtından əvvəl xitam verilərkən, peşə təhsili müəssisəsində dövlət sifarişi əsasında təhsil alanlar təhsil aldıqları ixtisaslar və onların istəkləri nəzərə alınmaqla, digər peşə təhsili müəssisələrinə köçürülürlər.

## 6. Mübahisəli məsələlərin həlli

6.1. Tərəflər Müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.

6.2. Mübahisəli məsələlərin həlli danışıqlar yolu ilə mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

## 7. Tərəflərin məsuliyyəti

7.1. Tərəflər bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirmədikdə və ya lazımi səviyyədə yerinə yetirmədikdə, onlar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

## 8. Müqaviləyə əlavə və dəyişikliklər edilməsi

8.1. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq protokollarla rəsmiləşdirilən əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavələr və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab edilir.

## 9. Digər şərtlər

9.1. Bu Müqavilə hər iki tərəfin onu imzaladığı tarixdən qüvvəyə minir. Müqavilənin qüvvədə olma müddəti ____________________ tarixinədəkdir.

9.2. Bu Müqavilənin qüvvədə olma müddəti başa çatdıqdan sonrakı 1 (bir) həftə ərzində tərəflərdən heç biri Müqaviləyə xitam verilməsini tələb etmirsə və əgər peşə təhsili müəssisəsində dövlət sifarişi əsasında təhsil alan olarsa, həmin Müqavilənin qüvvədə olma müddəti avtomatik olaraq eyni şərtlərlə və eyni müddətə uzadılır.

9.3. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib olunmuşdur və 1 (bir) nüsxəsi müvafiq peşə təhsili müəssisəsində, digər nüsxəsi isə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyində saxlanılır.

## 10. Tərəflərin rekvizitləri və imzaları

| Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | Peşə təhsili müəssisəsi |
|---|---|
| | ________________________________ |
| | (adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı) |
| | ________________________________ |
| | ________________________________ |
| ________________________________ | ________________________________ |
| (səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı) | (səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı) |
| ________________________________ | ________________________________ |
| ________________________________ | |
| İmza____________________________ | İmza___________________________ |

“Yeni maliyyələşmə mexanizminin tətbiqi ilə bağlı dövlət sifarişi ilə peşə təhsili müəssisələrində kadr hazırlığının maliyyələşdirilməsi və hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına artım əmsalının tətbiq edilməsi qaydaları”na

**2 nömrəli əlavə**

## Peşə təhsili müəssisəsi ilə dövlət sifarişi ilə təhsil alacaq təhsilalan arasında

## NÜMUNƏVİ FƏRDİ MÜQAVİLƏ № _______

Bakı şəhəri “_____” ________________ 20____ il

Bir tərəfdən peşə təhsili müəssisəsi və digər tərəfdən dövlət sifarişi ilə təhsil alacaq təhsilalan _______________________________
(soyadı, adı, atasının adı)

birgə “tərəflər”, ayrı-ayrılıqda isə “tərəf” adlanmaqla, Azərbaycan Respublikası Mülki Məcəlləsinin yetkinlik yaşına çatmayanlar tərəfindən əqdlərin bağlanılmasına dair müddəaları nəzərə almaqla, bu Müqaviləni aşağıdakı şərtlərlə imzaladılar:

### 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilənin predmeti “Peşə təhsili müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 mart tarixli 2067 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən peşə təhsili müəssisələrində kadr hazırlığının adambaşına maliyyələşdirilmə prinsipi əsasında dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi ilə həyata keçirilməsi zamanı tərəflər arasında yaranan münasibətlərdir.

1.2. 2023-cü il aprelin 1-dən peşə təhsili pilləsinin bütün səviyyələrində dövlət sifarişi ilə təhsil alanlara münasibətdə hər il dövlət sifarişinin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği Azərbaycan Respublikasının Nazirlər Kabineti

tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı əsasında müəyyən olunur.

## 2. Tərəflərin hüquq və öhdəlikləri

2.1. Peşə təhsili müəssisəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarına uyğun olaraq, təhsilalana ödənilməli olan məbləği bu Müqavilənin 3-cü hissəsində nəzərdə tutulmuş qaydada ödəməyi öhdəsinə götürür.

2.2. Peşə təhsili müəssisəsinin təhsilalandan təhsil müddətində bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsini, habelə peşə təhsili müəssisəsinin qayda və tələblərinə riayət edilməsini tələb etmək hüququ vardır.

2.3. Təhsilalan aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

2.3.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən hər bir təhsilalana düşən təhsil xərclərinin miqdarı daxilində təhsilini müvəffəqiyyətlə başa çatdırmaq;

2.3.2. peşə təhsili müəssisəsinin daxili intizam və davranış qaydalarına riayət etmək;

2.3.3. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərini, həmçinin ümumi əxlaq və etik davranış qaydalarını pozmamaq;

2.3.4. peşə təhsili müəssisəsinin təyin etdiyi müddət ərzində seçdiyi ixtisas üzrə tədris planlarını və tədris proqramlarını yerinə yetirmək;

2.3.5. öz hərəkətləri ilə peşə təhsili müəssisəsinə maddi zərər vurduqda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, dəymiş maddi zərəri ödəmək;

2.3.6. peşə təhsili müəssisəsi tərəfindən tələb olunan sənədləri şifahi və ya yazılı sorğu alındığı andan 10 (on) iş günü müddətində təqdim etmək;

2.3.7. bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini çətinləşdirən və ya mümkünsüz edən hallar haqqında peşə təhsili müəssisəsinə 5 (beş) iş günü müddətində məlumat vermək.

2.4. Təhsilalanın peşə təhsili müəssisəsindən bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsini tələb etmək hüququ vardır.

## 3. Xərclərin məbləği və ödəniş qaydası

3.1. Hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

3.2. Bu Müqaviləyə uyğun olaraq, peşə təhsili müəssisəsi tərəfindən təhsilalana ödənilməli olan bütün pul ödənişləri onun şəxsi kart-hesabına köçürmə yolu ilə həyata keçirilir.

3.3. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, təhsilalan peşə təhsili müəssisəsini dəyişdirdikdə, müvafiq müqaviləyə xitam verilir və təhsilalanın təhsil xərclərinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə yeni peşə təhsili müəssisəsi arasında bağlanılmış müqaviləyə əsasən həyata keçirilir.

## 4. Qarşısıalınmaz qüvvə

4.1. Qarşısıalınmaz qüvvənin təsirinə tərəflərin nəzarət edə bilmədikləri, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, müvafiq qanunvericilik qərarları və digər hallar aiddir.

4.2. Qarşısıalınmaz hallara istinad edən tərəf:

4.2.1. qeyd olunan halların yarandığı vaxtdan 10 (on) gün müddətində digər tərəfi məsələ ilə yazılı şəkildə xəbərdar edir və onun tələbinə əsasən səlahiyyətli dövlət orqanı tərəfindən hadisəni təsdiq edən rəsmi sənədi ona təqdim edir. Məlumatda baş vermiş hadisənin xarakteri təsvir edilməli və mümkün olduqda, hadisənin tərəflərin bu Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsirinin qiymətləndirilməsi əks etdirilməlidir;

4.2.2. həmin hallar aradan qaldırıldıqda, dərhal bu barədə digər tərəfi yazılı surətdə məlumatlandırmalıdır. Bu zaman Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qeyd olunmalıdır. Məlumatın göndərilmədiyi və ya vaxtında göndərilmədiyi təqdirdə, məlumatı təqdim etməyən və ya vaxtında təqdim etməyən tərəf müvafiq xərcləri ödəməlidir.

4.3. Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qarşısıalınmaz halların mövcud olduğu müddətə uzadılır. Qarşısıalınmaz hallar 2 (iki) aydan çox davam edərsə, istənilən tərəf

bu Müqaviləni məhkəməyə müraciət etmədən, digər tərəfi bu Müqavilənin şərtlərinə müvafiq olaraq məlumatlandıraraq poza bilər.

## 5. Müqavilənin ləğv edilməsi qaydası

5.1. Tərəflərdən biri üzərinə götürdüyü öhdəlikləri tam və ya lazımi qaydada yerinə yetirmədikdə, digər tərəf Müqaviləni birtərəfli qaydada ləğv edə bilər.

5.2. Tərəflərdən biri bu Müqaviləni davam etdirməkdən könüllü olaraq imtina etdiyi halda, Müqavilə hər iki tərəfin razılığı ilə ləğv edilir.

5.3. Müqavilənin ləğv edilməsi tələbi ilə çıxış edən tərəf digər tərəfə ləğvetməyə səbəb olmuş halları əsaslandırmaqla, yazılı bildiriş göndərir. Müqavilənin ləğv edilməsi haqqında bildirişi alan tərəf həmin bildirişi aldıqdan sonra 15 (on beş) təqvim günü müddətində digər tərəfə cavab ünvanlandırmalıdır.

5.4. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, təhsilalan peşə təhsili müəssisəsini dəyişdirdikdə Müqaviləyə xitam verilir və təhsilalanın təhsil xərclərinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə yeni peşə təhsili müəssisəsi arasında bağlanılmış Müqaviləyə əsasən həyata keçirilir.

5.5. Belə hallarda Müqavilənin ləğv edilməsinə səbəb olmuş hallar göstərilməklə, peşə təhsili müəssisəsi tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə məlumat təqdim olunur.

## 6. Mübahisəli məsələlərin həlli

6.1. Tərəflər Müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.

6.2. Mübahisəli məsələlərin həlli danışıqlar yolu ilə mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

6.3. Mübahisənin həlli üçün tərəflər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə də müraciət edə bilərlər.

## 7. Tərəflərin məsuliyyəti

7.1. Tərəflər bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirmədikdə və ya lazımi səviyyədə yerinə yetirmədikdə, onlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 8. Müqaviləyə əlavə və dəyişikliklər edilməsi

8.1. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə protokollarla rəsmiləşdirilən müvafiq əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavə və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab olunur.

## 9. Digər şərtlər

9.1. Bu Müqavilə tərəflərin onu imzaladıqları andan qüvvəyə minir. Müqavilənin qüvvədə olma müddəti 1 (bir) ildir.

9.2. Bu Müqavilənin qüvvədə olma müddəti başa çatdıqdan sonrakı 1 (bir) həftə ərzində tərəflərdən heç biri Müqaviləyə xitam verilməsini tələb etmirsə və əgər peşə təhsili müəssisəsində dövlət sifarişi əsasında təhsilalan olarsa, onun qüvvədə olma müddəti avtomatik olaraq eyni şərtlərlə növbəti tədris ilinin sonunadək uzadılır.

9.3. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə tərtib olunmuşdur və 1 (bir) nüsxəsi təhsilalana verilir, digər nüsxəsi isə peşə təhsili müəssisəsində saxlanılır.

## 10. Tərəflərin rekvizitləri və imzaları

| Təhsil müəssisəsi | Təhsilalan |
|---|---|
| ____________________________ | ______________________________________ |
| (səlahiyyətli şəxsin vəzifəsi, soyadı, adı və atasının adı) | (soyadı, adı, atasının adı)<br>Yaşadığı yer: Azərbaycan Respublikası |
| ____________________________ | ______________________________________ |
| İmza _______________________ | ünvan: ______________ küçəsi, ev № ______<br>mənzil № ___________, tel: ______________<br>pasport (şəxsiyyət vəsiqəsi) _______________<br>seriya _________________________________<br>İmza __________________________________ |

_____________________